# Dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti Şərqi Zəngəzura səfər edib

## Səfər Baş nazir Əli Əsədovun, Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında həyata keçirilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, noyabrın 1-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət heyət Şərqi Zəngəzura səfər edib.**





AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə yeni istifadəyə verilmiş Zəngilan Beynəlxalq Hava Limanı ilə tanış olub. "Azərbaycan Hava Yolları" QSC-nin nümayəndəsi hava limanında görülmüş işlər barədə məlumat verib.

Daha sonra heyət Qubadlı şəhərinə yola düşüb, burada Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Qubadlı şəhərinin Baş planı barədə məruzə ilə çıxış edib.

Heyət 110 kV-luq "Qubadlı" yarımstansiyasına da baxış keçirib. "Azərenerji" ASC-nin prezidenti Balababa Rzayev yarımstansiyada görülən işlər barədə məlumat verib.

Daha sonra heyət Xudafərin-Qubadlı-Laçın avtomobil yoluna baxış keçirib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yolun tikintisi ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

Laçın rayonunun Zabux kəndində isə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanov tezliklə köçkünlərin Laçın şəhərinə, Zabux və Sus kəndlərinə qayıdışı və mina, partlamamış sursatlardan ərazinin təmizlənməsi istiqamətində aparılan işlər barədə məlumat veriblər.









Daha sonra heyət 110 kV-luq "Laçın şəhəri" qovşaq yarımstansiyası ilə də tanış olub. Buradan Baş nazir Əli Əsədovun, PA-nın və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında nümayəndə heyəti Laçın şəhərinə gəlib. Laçın şəhərində görülən işlər barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov məlumat veriblər, şəhər xəstəxanasının binasına da baxış keçirilib.

Heyət daha sonra Laçın rayonunda Qorçu Hava Limanında olub. "Azərbaycan Hava Yolları" QSC-nin nümayəndəsi hava limanının tikintisi ilə əlaqədar görülən işlər barədə məruzə ilə çıxış edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Kəlbəcər şəhərinin Baş planı barədə məlumat verib, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov isə Kəlbəcər-Laçın avtomobil yolunda görülən işləri məruzə edib.

Səfər çərçivəsində baxış keçirilən bütün yerlərdə yenidənqurma və bərpa işlərinin, habelə infrastruktur layihələrinin icrasının Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq yerinə yetirilməsi istiqamətində aidiyyəti qurumların rəhbərlərinə lazımi göstərişlər və tapşırıqlar verilib.